# FƏLSƏFƏ

**UOT 101.1**

## ÖZGƏLƏŞMƏNİN İQTİSADİ VƏ SOSİAL FORMALARININ QARŞILIQLI ƏLAQƏSİ

**H.Q.MƏMMƏDOV*, H.M.MƏMMƏDOV****
***Bakı Dövlət Universiteti***
***ho2039@mail.ru*, elmaddin@baghlangroup.com*****

*Məqalədə özgələşmənin iqtisadi və sosial formalarının mahiyyəti təhlil olunur, müasitr cəmiyyətdə onların qarşılıqlı əlaqələrinin spesifikliyi aşkara çıxarılır.*

*Milli müstəqillik dövründə ölkəmizdə həyata keçirilən transformasiya proseslərinin iqtisadi və sosial özgələşmənin yumşaldılması üçün əhəmiyyətinin açılmasına xüsusi diqqət yetirilir.*

**Açar sözlər:** iqtisadi özgələşmə sosial özgələşmə, suverenliyin iqtisadi-fəlsəfi mahiyyəti, özgələşmənin yumşaldılması

Özgələşmə çoxtərəfli və mürəkkəb sosial fenomen olmaqla, müxtəlif formalarda (iqtisadi, sosial, siyasi, mənəvi və s.) çıxış edir. Bu yazıda əsas diqqət onun birinci iki növü arasındakı əlaqələrin təhlilinə yönəldilir.

Əvvəla onu qeyd edək ki, müasir fəlsəfi ədəbiyyatda özgələşmənin məzmunu və təzahür formaları haqqında müxtəlif fikirlər söylənilir. Fikrimizcə, özgələşmənin mahiyyətinə dair zəmanəmizin tanınmış filosofu E.Fromun mövqeyi daha məqbuldur. Onun nəzərincə, “özgələşmə anlayışı altında elə davranış və qavrayış üsulu başa düşülür ki, insan özünü nə isə yad hiss edir, özü-özündən kənarlaşmış olur, hərəkət və əməllərinin nəticələri onun üzərində hökmranlıq edir” (11, 396).

Özgələşmənin mürəkkəb məzmun kəsb etdiyi ona verilən təriflərin rəngarəngliyində ifadə olunur. Ümumilikdə götürdükdə onun aşağıdakı tərifi öz dolğunluğu ilə seçilir: “özgələşmə insan fəaliyyətinin nəticələrinin ona yad olan və onun üzərində hökmranlıq edən nə isə bir şeyə çevrilməsi deməkdir” (1, 201).

Qeyd etmək lazımdır ki, fəlsəfi ədəbiyyatda özgələşmənin cəmiyyətin bütün tərəflərini əhatə edən proses olduğu vurğulanır və göstərilir ki, o, insa-

nın mahiyyəti ilə mövcudluğunun uyğunsuzluğunda onun maddiləşmiş qabiliyyətləri üzərində nəzarətinin itirilməsində və sonuncuların ona qarşı duran düşmən qüvvəyə çevrilməsində ifadə olunur (7, 13).

Özgələşmənin müxtəlif formalarının əlaqəli şəkildə öyrənilməsi ona vahid sistem kimi yanaşaraq dərindən təhlil etmək imkanı verir. Bu mənada onun iqtisadi və sosial növlərinin münasibətləri və əlaqələri daha səciyyəvidir. Söhbət həm də onların obyektiv və subyektiv səpkilərinin, yəni real iqtisadi və sosial münasibətlərdə təzahür edən tərəfləri ilə insanın şüurunda (həqiqi insani normalardan kənara çıxan təzahürlərdə) olan məqamlarını vəhdətdə götürməyi vacibdir (6, 28). Ümumi mənada iqtisadi özgələşmə dedikdə, insanların maddi istehsalda yaratdıqları məhsulların və xidmət növlərinin onların üzərində ağalıq etməsi başa düşülür. Bu, əmtəə fetişizmi adlanan hadisə ilə sıx bağlıdır. Sosial özgələşmə insanın mövcud sosial institutlardan yadlaşması fərdin iradəsinin sosial birliklərə və qruplara tabe vəziyyətə düşməsində ifadə olunur. Fəlsəfi fikir tarixində ilk dəfə Hegel özgələşmənin iqtisadi və digər formaları arasında əlaqəni açmağa cəhd göstərmişdir. O əmək prosesinin, ictimai əmək bölgüsünün cəmiyyətdə müsbət cəhətləri ilə yanaşı inkari nəticələrini də göstərmiş və qeyd etmişdir ki, bu amillər insanın fərdiliyini mücərrədləşdirir və bununla da özgələşməyə şərait yaradır (3, 324, 344).

Hegelin özgələşmənin iqtisadi və fəlsəfi aspektlərini vəhdətdə götürmək ənənəsini davam etdirən K.Marks bu fenomenin daha dərin təhlilini vermiş, onun haqqında bütöv bir təlim yaratmışdır. Bu təlimin mərkəzi müddəasını özgələşmiş əmək ilə xüsusi mülkiyyətin ayrılmaz əlaqəliliyi təşkil edir (5, 98). Yeri gəlmişkən, qeyd edək ki, Marksın özgələşmənin yaranmasını bütünlükdə və tamamilə xüsusi mülkiyyət ilə bağlaması fikri həm nəzəri, həm də praktiki cəhətdən özünü doğrultmadı. Lakin bu faktdan heç də belə nəticə çıxarmaq olmaz ki, özgələşmənin xüsusi mülkiyyət ilə əlaqəsi yox olur. əslində xüsusi özünün funksional roluna görə özgələşdirilə bilən mülkiyyətdir, yəni onu satmaq, başqasına hədiyyə etmək və icarəyə vermək mümkündür. Müxtəlif mülkiyyət formalarının bərabərhüquqlu fəaliyyətinin təmin olunduğu, bazar iqtisadi mexanizminin mühüm əsaslarından biri kimi xüsusi mülkiyyətin rolundan artdığı və təsir dairəsinin durmadan genişləndiyi indiki dövrdə bu məqamı lazımi qiymətləndirməmək doğru olmazdı. Deməli, özgələşmə təkcə keçmiş cəmiyyətlərin yaratdığı nə isə təsadüfi və ya müvəqqəti bir fenomen deyildir. Onu bugünkü ictimai münasibətlər sistemi, onun tərkib hissəsi olan xüsusi mülkiyyət institutu yaradır. Özgələşmənin iqtisadi və sosial formalarının əlaqəliliyi hər şeydən əvvəl onları yaradan səbəblər müstəvisində aşkara çıxır. Belə ki, hər iki növ, xüsusi mülkiyyət və əmək bölgüsünün bilavasitə təsiri altında formalaşır. Onların ayrılmaz əlaqəsi bunda görünür ki, xüsusi mülkiyyətdən əsaslanan iqtisadi əmək bölgüsü özünün müvafiq davamını konkret sosial formalarda tapır (4, 173). Özgələşmə fenomeninə dərindən nəzər yetirdikdə görünür ki, onun mənbəyi iqtisadi həyatda, maddi

istehsal prosesindədir. Belə ki, burada əmək fəaliyyətini göstərməklə insanlar təbiətdə olan əşyalar aləmini, yəni bir tərəfli özlərinin yaratdıqları predmetlər dünyası ilə tamamlayırlar. Sonuncular insan fəaliyyətinin məhsulları olmaqla, ona yad qüvvəyə çevrilir və üzərlərində hökmranlıq edirlər. İqtisadi həyat cəmiyyətin mövcudluğu, normal yaşaması və inkişafı üçün həlledici əsas rolunu oynadığına görə, burada baş verənlər (o cümlədən də özgələşmə) ictimai həyatın digər sferalarında və birinci növbədə sosial münasibətlər sistemində özünün müvafiq inikasını tapır. Əlbəttə, sonuncu sahədə özgələşməni iqtisadi sahənin avtomatik nəticəsi hesab etmək doğru olmazdı, çünki sosial özgələşmə öz məzmunu və mahiyyətinə görə bilavasitə insanların məhz sosial münasibətlərin istehsalı və təkrar istehsalına yönəlmiş fəaliyyətin nəticəsidir. Ona görə də, burada söhbət yalnız özgələşmənin iqtisadi formasının digər formalara (sosial, siyasi, mənəvi və s.) güclü təsir göstərməsindən, onların sıx qarşılıqlı əlaqələrindən gedə bilər

Biz yuxarıda iqtisadi özgələşmənin kökünün bilavasitə maddi istehsal fəaliyyətində yarandığını qeyd etdik, lakin unutmaq olmaz ki, insanların bu sahədə gördüyü bütün işlər, bölgü və mənimsəmədən ayrılmazdır. Buradan aydındır ki, sonuncular iqtisadi özgələşmənin formalaşmasının fəal səbəbləri kimi çıxış edir. Başqa sözlə, istehsal cəmiyyətin mövcudluğunun, insanın başlıca tələbatlarını ödəməyin ilkin şərti olmaqla sosial fəaliyyətin əsasında durduğu kimi, burada özünü göstərən özgələşmə də sözügedən sferada onunla əlaqəli şəkildə təzahür edir. Təkcə sırf iqtisadi özgələşmə deyil, həm də onun ayrılmaz tərəfi olan, texnoloji səpki də sosial münasibətlərin təkrar istehsalında müvafiq uyğunsuzluqları şərtləndirir. İqtisadi özgələşmənin texniki səpkisi o deməkdir ki, insan texnikanı inkişaf etdirmək nəticəsində özünü bir növ ona tabe vəziyyətinə salır. Buna görə də, bütövlükdə, texnika, istehsalın texnoloji üsulu, onun tərkib hissələri ilə insanların sosial münasibətlərinin ahəngdar məcraya yönəldilməsi iqtisadi özgələşmənin və ondan keçərək sosial özgələşmənin bu mənada elmi ədəbiyyatda haqlı olaraq vurğulanır, əməyin özgələşməsi ilkin olmaqla, onun digər əsas növlərini müəyyən edir (12, 15). İnsanın mahiyyətinin bütün ifadə formalarını əhatə edən əmək prosesi özgələşmənin iqtisadi və sosial formalarının əlaqəsinin əsasında durur. Qeyd olunan sahələrin hər ikisində əmək insan ilə onun fəaliyyəti arasında elə ayrılma yaradır ki, burada subyekt həmin prosesin nəticələrindən asılı vəziyyətə düşür (2, 30). İqtisadi özgələşməni şərtləndirən əsas amillərdən biri-ictimai əmək bölgüsü təkcə iqtisadi fenomen deyildir, o həm də sosial münasibətlər forması kimi çıxış edir. Eynilə də iqtisadi özgələşmənin digər mühüm səbəbi, xüsusi mülkiyyət yalnız iqtisadi kateqoriya olmaqla məhdudlaşmır. O həm də mühüm sosial məna daşıyır, şəxsiyyətin özünütəsdiqetmə vasitəsi rolunu oynayır. İndiki dövrdə özgələşmənin məzmunu daha da genişlənir, o öz daxilində insanın təbiətdən ayrılmasından başlayaraq, şəxsiyyətin ikiləşməsi və böhranına qədər çoxsaylı səpkiləri əhatə edən qlobal problem kimi çıxış edir. Bununla belə,

hazırda da, əvvəlki dövrlərdə olduğu kimi özgələşmənin məzmununda əmək ilə sıx bağlılıq mövcuddur. Bu, xüsusilə özgələşmiş əmək fenomeninə aiddir. Müasir cəmiyyətdə özgələşmiş əməyin yaratdığı neqativ nəticələri E.From aşağıdakı kimi izah edir: "Əməyin özgələşməsi və onun xarakterindən dərin narazılıq, iki nəticə törədir, birincisi, başdan-başa tənbəllik ilə dolu olan ideal, ikincisi, gizli şəkildə və qeyri-şüuri formada əməyə və onunla bağlı olan hər şeyə qeyri-şüuri düşmən münasibət" (10, 423).

Müasir cəmiyyətdə özgələşmənin rolunu araşdıran E.From onu insan azadlığının inkişafı, həmin prosesin ikili təbiəti ilə vəhdətdə götürür. Froma görə bu ziddiyyətlilik onda təzahür edir ki, bir tərəfdən insan inkişaf edir, onun təbiətə yiyələnmə səviyyəsi yüksəlir, zəkasının rolu artır. Digər tərəfdən, insanın təcrid olunması, özünəinamsızlığı dünyada öz yerinə və həyatının mənasına münasibəti daha çox şübhə altına alınır, fərdi gücsüzlük və gərəksizlik hissi güclənir (9, 39).

Qeyd etmək lazımdır ki, özgələşmənin həm iqtisadi, həm də sosial formaları insanların azad hərəkətləri ilə sıx əlaqəlidir. Belə ki, özgələşmənin mahiyyət etibarilə insanın fəaliyyəti nəticələrinin ondan ayrılması, ona yad olması faktının özü, həmin məhsulların (və deməli, onu törədən fəaliyyətin də) müəyyən müstəqilliyini, sərbəstliyini və avtonomluğunu təcəssüm etdirilir. Bununla belə, əsl azadlıq bilavasitə iqtisadi istehsal sferasında insanın öz maddi rifahını yaxşılaşdırmağa yönələn fəaliyyətinin hüdudları dairəsində təsir göstərmir. Onun həqiqi meydanı sosial sferada, sosial münasibətlər sahəsində təcəssüm edir. Təsadüfi deyildir ki, həm elmi, həm də real gündəlik həyatda azadlıq dedikdə, birinci növbədə onun sosial forması başa düşülür. Lakin azadlığın iqtisadi və sosial növləri bir-biri ilə sıx əlaqəlidir, belə ki, ikinci çox vaxt birincinin zəmini üzərində qərarlaşır. Buradan belə bir qənaətə gəlmək olar ki, iqtisadi və sosial özgələşmənin əlaqəliliyinin mühüm bir səpkisi azadlıq vasitəsilə özünü göstərir.

Müasir bəşəriyyətin informasiya texnologiya dövrünə daxil olması, virtual fəaliyyət məkanının genişlənməsi cəmiyyətdə baş verən müxtəlif yönümlü digər mürəkkəb dəyişikliklər bir tərəfdən insanın öz mahiyyət qüvvələrini reallaşdırması üçün yeni formalar və imkanlar yaradır, digər tərəfdən, özgələşmənin iqtisadi və sosial formalarına gücləndirici təsir göstərir. Buna görə hazırda iqtisadi və sosial idarəetmə sistemlərinin fəaliyyətlərində bu məqamı nəzərə almaları zəruri hal alır.

Müasir cəmiyyətdə sosial özgələşmənin təzahür formaları müxtəlifdir. Onların sırasında əməyin şəraiti, onun motivasiyası və sosial nemətlərdən istifadə olunması ilə bağlı tərəflər xüsusi yer tutur. Qeyd olunan məqam müasir cəmiyyətdə sahibkarlığın inkişafına geniş meydan verilməsi ilə əlaqədar olaraq daha tez-tez baş verir. Söhbət bundan gedir ki, hazırda xırda və orta sahibkarlar kəskinləşməkdə olan bazar rəqabətində dözüm gətirmək üçün çox vaxt sosial fondlara ödənişlər etməkdən boyun qaçırırlar, işçiləri müvəqqəti işə götürməyə

çalışırlar ki, onlara sosial sığorta şamil olunmasın. Bu olunanlar və digər ona bənzər hallar çox vaxt bununla nəticələnir ki, insanlar belə müəssisələrdə işləmələrinə baxmayaraq, müxtəlif səbəblər üzündən əmək qabiliyyətini itirdikdə və yaxud qocaldıqda pensiya təminatından, sosial proqramlardan, üstünlüklərdən və güzəştlərdən kənarda qalırlar. Özgələşmənin iqtisadi və sosial formalarının sıx əlaqədə olduğunu aşağıdakı misaldan da görmək olar. Müasir cəmiyyətdə, o cümlədən bizim ölkəmizdə ödənişlı əsaslar üzrə fəaliyyət göstərən universitet və institutlar şəbəkəsinin genişlənməsi ilə əlaqədar olaraq gənclərin getdikcə daha çox hissəsi ali təhsildən uzaqlaşmalı və özgələşməli olur. Onların özlərinin və valideynlərinin iqtisadi imkanları məhdud olduğundan, təhsildən kənarda qalma halları çoxalır. Beləliklə də, onlar öz imkanlarını reallaşdırmaqdan, yaradıcı qabiliyyətlərini həyata keçirməkdən məhrum olurlar, nəticədə onların mahiyyət parametrləri və fərdi keyfiyyətləri aşağı düşür, mənəvi kasadlıq və özgələşmə özünü göstərir.

Bu deyilənlər sosial sferanın mühüm sahəsi olan təhsildə özgələşmənin təsirini əyani surətdə sübut edir. Lakin burada iqtisadi özgələşmənin təsiri birbaşa deyil, daha çox dolayısı ilə özünü göstərir. Deyilənlərlə yanaşı, müasir cəmiyyətdə bilavasitə iqtisadiyyat göstəriciləri ilə bağlı olan amillər də vardır. Sonuncuların sırasında xeyli miqdarda ailələrdə əmək haqqının və yaşayış minimumunun tələb olunduğundan aşağı səviyyədə olması əmək şəraitində çatışmazlıqdır, əmək qabiliyyətli əhalinin xeyli hissəsini əhatə edən işsizliyin kifayət qədər olması və sair xüsusi yer tutur. Sadalanan amillərin birgə təsiri altında tez-tez elə vəziyyət yaranır ki, əmək insanın əsl yaradıcı mahiyyətinin ifadəsi olmaqdan qalır, o daha çox yaşayış vasitəsi əldə etmək mənbəyi rolunu oynayır. Digər tərəfdən maddi vəziyyətinin kifayət qədər olmaması insanın öz qohumları, tanışları və dostları ilə tez-tez ünsiyyət saxlamaq imkanlarını məhdudlaşdırır. Bütün bunlar isə müasir insanın sosial əlaqələrini zəiflədir, onun sosial mühitdən təcrid olunması və fərdi həyatına qapanması ilə nəticələnir.

Milli müstəqillik dövründə ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi islahatlar cəmiyyətimizin iqtisadi bünövrəsini kökündən dəyişdirdi, burada totalitarizm dövrünün qalıqlarını tədricən aradan qaldırmaqla bazar münasibətlərini formalaşdırır. Bu proses insanların əmək fəaliyyətində, ictimai əmək bölgüsündə, bölgü, mübadilə və istehlak sferalarında ciddi irəliləyişləri təmin etməklə yanaşı, özgələşmənin əvvəlki dövrlərə xas olan kəskin formalarının aradan qaldırılmasında və onun yumşaldılmış şəkildə fəaliyyət göstərməsində çox mühüm rol oynayır.

XX əsrin birinci onilliyinin sonlarında ölkəmizin iqtisadiyyatında keçid dövrü artıq başa çatmışdır. Bu müasir cəmiyyətimizin iqtisadi reallığında prinsipcə yeni mərhələnin və ümumilikdə daha yüksək inkişaf pilləsinin əldə olunması deməkdir. Ölkəmizin daxili həyatında baş verən əsaslı irəliləyişlər onun beynəlxalq miqyasda nüfuzu və rolunun artması ilə vəhdətdə çıxış edərək, müstəqilliyin başlıca göstəricisi olan milli suverenliyini daha da möh-

kəmləndirməkdədir. Bununla əlaqədar qeyd edək ki, suverenlik təkcə siyasi məna kəsb etməklə məhdudlaşmır, o özünü geniş iqtisadi və sosial məzmunda kəsb edir. Bu fikri bir qədər də konkretləşdirərək söyləmək olar ki, suverenlik iqtisadi-fəlsəfi kateqoriyadır. Odur ki, özgələşmənin iqtisadi və sosial formalarının sıx əlaqəliyi özünün müvafiq ifadəsini ölkəmizin suverenliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsində də tapır. Bunu aydın təsəvvür etmək üçün milli suverenliyin iqtisadi və fəlsəfi səpkilərinə bir qədər dərindən nəzər salmaq məqsədəuyğundur.

Ümumfəlsəfi mənada suverenlik insanın mövcudluğu, düşüncə tərzi və fəaliyyətinin müstəqil təşkili, öz mahiyyət qüvvələrini başqa amillərin determinasiya əlaqələrindən azad şəkildə reallaşdırması deməkdir. Bu anlayış insan fəaliyyətinin başlıca sahəsi olan iqtisadi müstəvidə özünəməxsus surətdə konkertləşmiş məzmun alır. Daha dəqiq desək, suverenliyin iqtisadi səpkisinin ölkədən maddi istehsal fəaliyyətinin müstəqil olması (yəni kənar dövlətlərdən asılı olması) bu prosesin subyektlərinin öz həyatlarını davam etdirmək və yaxşılaşdırmaq imkanlarını reallaşdırması deməkdir. Suverenliyin iqtisadi səpkisinin başlıca meyarı ümumi şəkildə götürüldükdə ölkədə təsərrüfat məsələlərinə dair qərarların qəbuluna və onların reallaşdırılması nəticələrinin mənimsənilməsində mövcud azadlığın hüdudları, təkrar istehsalın müstəqillik (avtonomluq) səviyyəsidir (8, 212). Göründüyü kimi iqtisadi suverenlik fəaliyyətin bu sahəsinin iştirakçısı olan subyektlərin təsərrüfat aparma azadlığı ilə bilavasitə bağlıdır. Lakin burada müəyyən paradoksal vəziyyət özünü göstərir: iqtisadi təsərrüfat fəaliyyəti ilə əhatə olunan subyektlərin hər biri özünün bu qəbildən olan azadlığını və müstəqilliyini öz rifah səviyyəsinin yüksəlməsində görür. Buna görə də, iqtisadi təsərrüfat sisteminin akortları (agentləri) arasında həmin münasibətdə müəyyən ziddiyyətlik özünü göstərə bilir. Qeyd olunan vəziyyətin bir mühüm səbəbi odur ki, iqtisadi müstəqillik (suverenlik) ümumi ideal mənada götürülən azadlıq ilə tükənmir, o, real konkret şəraitdə və məzmunda təzahür edir. Həmin məzmun subyektlərin öz həyatının mövcudluğunu qoruyub saxlamaq və imkan daxilində onu yaxşılaşdırmaqdan ibarətdir. Sözügedən ziddiyyətlik özündə potensial vəziyyətdə həm iqtisadi, həm də sosial özgələşmənin güclənməsi imkanlarına malik olur. Onların məhz imkan vəziyyətində qalmasında yəni reallaşaraq gerçəkliyə çevrilməsinin qarşısının alınmasında, iqtisadi və sosial idarəçilik böyük rol oynayır. Onun şüurlu və elmi əsaslarla aparılması iştirakçıların spesifik maraqlarının nəzərə alınmasında və bir-birilə əlaqələndirilərək uzlaşdırılmasında müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Sosial həyatın təkmilləşməsinə yönələn idarəçilik mexanizmləri təkcə cari təsərrüfat vəzifələrinin müəyyən edilməsi və həlli məqsədi güdmür, onların çox mühüm fəaliyyət istiqamətini bu sahədə strateji xarakterli uzunmüddətli vəzifələrin qurmağa istiqamətlənmiş sosial idarəçilik fəaliyyəti təkcə sırf iqtisadi prosesləri tənzim etməklə (yəni səmərəli təsərrüfat qərarları işləyib hazırlamaq və onları qənaətli əsaslarla həyata keçirmək)

məhdudlaşmır. Hazırda öz işini səmərəli şəkildə həyata keçirilməsi təşkil edir. Onun çox mühüm və ayrılmaz tərkib hissəsini malik olduğu dünyagörüşü oriyentləri əsasında görülmüş işi obyektiv təhlil etmək, qiymətləndirmək və dəyərləndirmək, habelə keçmişdə baş vermiş analoji vəziyyətlər ilə müqayisə aparmaq, sözün müsbət mənasında, varisliyi nəzərə almaq təşkil edir.

İqtisadi suverenlik öz məzmunu etibarilə geniş anlayış olduğu kimi, onun həyata keçirilməsi də uzun sürən prosesdir. Bu tədricən, yəni pillə-pillə reallaşır. Əgər ilk mərhələdə başlıca olaraq insanlara lazım olan maddi nemətlərin minimum, nisbətən az miqdarda yaradılması məqsədi güdülürsə, sonralar buraya onların həyatının və mülkiyyətinin qorunması da əlavə olunur. Beləliklə, cəmiyyət inkişaf etdikcə iqtisadi suverenliyin miqyasları və həcmi də fasiləsiz olaraq genişlənir. Bu baxımdan müasir Azərbaycan cəmiyyətinin milli müstəqillik dövrü daha səciyyəvidir. Başqa sözlə deyilsə, ölkəmizdə vətəndaş cəmiyyətinin əsaslarının yaradılması gedişində iqtisadi suverenlik təkmilləşir və möhkəmlənir. Burada dövlətin idarəçilik və tənzimedici fəaliyyəti xüsusi yer tutur. Təsadüfi deyildir ki, hazırda ölkəmizdə hüquqi dövlətin formalaşması təkcə siyasi suverenliyin deyil, həm də iqtisadi suverenliyin təmin edilməsində misilsiz rol oynayır. Onun bu yönümdə fəaliyyəti həm də iqtisadi və sosial özgələşmənin əlaqəli şəkildə mühüm əhəmiyyətinə malikdir. Dövlət ölkə ərazisində vətəndaşların normal həyatı, onun düzgün əlaqələndirilməsi və təkrar istehsalının başlıca təminatçısı və müdafiəçisi rolunu oynayan əsas siyasi institut olmaqla yanaşı həm iqtisadi, həm də sosial sahələrdə insanların fəaliyyəti məhsullarının onların öz mahiyyəti üzərində ağalıq etməsini minimuma endirən tədbirlər sistemi işləyib hazırlayır və həyata keçirir. Buradan aydın olur ki, müasir cəmiyyətdə iqtisadi özgələşmə formalarının yumşaldılmasında və onun digər özgələşmə növlərinə təsirinin zəifləməsində ölkəmizin milli suverenliyinin durmadan inkişafı müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Təhlil sübut edir ki, müasir cəmiyyətdə aşağıdakı istiqamətlər üzrə aparılan işlərin intensivliyinin artırılması, özgələşmənin iqtisadi və sosial növlərinin təsirinin azaldılmasına, onun kəskinlik dərəcəsinin aşağı düşməsinə kömək edə bilər:

- cəmiyyətin informatizasiyası, kompüterləşməsi və elektronlaşdırılması miqyasının genişlənməsi ilə yanaşı həmin proseslərin humanist ölçüləri və göstəricilərinin ön plana çəkilməsi;
- ölkədə məhsul buraxılmasının və istehsal vasitələri istehsalının artım tempini yüksəltməklə bərabər, cəmiyyətdə əmtəə fetizminin təzahürlərinə qarşı mübarizə aparılması;
- infrastruktur və xidmət sahələrini inkişaf etdirməklə yanaşı, onlardan səmərəli istifadə olunmasına qayğı göstərilməsi;
- demokratikləşmə səviyyəsinin yüksəldilməsi əsasında insanların real azadlıq və hüquqlarının genişləndirilməsi.

Özgələşmənin, o cümlədən də onun iqtisadi və sosial formalarının gələ-

cək məsələsi də diqqəti cəlb edir. Bu barədə elmi-fəlsəfi ədəbiyyatda vahid rəy yoxdur. Tədqiqatçıların bir qrupu bu barədə marksist ənənəni davam etdirərək gələcək cəmiyyətdə özgələşmə probleminin həll olunacağını (və ya aradan qaldırılacağını) iddia edirlər. Digərləri isə bu fenomenin ümumsosioloji status ilə kəsb etdiyini vurğulamaqla, göstərirlər ki, özgələşmə bütün cəmiyyətlərdə mövcud olacaqdır. Lakin ictimai inkişafın müxtəlif pillələri onun kəskinlik dərəcəsi ilə fərqlənir. Bu mövqedə duranlar insanın mahiyyəti ilə fəaliyyəti arasında müəyyən ayrılığın bütün cəmiyyətlərdə özünü göstərdiyi özgələşmənin ictimai əmək bölgüsü və mülkiyyət formaları ilə ayrılmaz surətdə bağlı olduğuna əsaslanırlar. Fikrimizcə, sonuncu yanaşma həqiqətə daha yaxındır, çünki özgələşmə ümumsosioloji kateqoriya statusuna malik olmaqla bu və ya digər dərəcədə bütün dövrlərdə fəaliyyət göstərir. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, cəmiyyət ona münasibətdə passiv və biganə olmamalıdır. Əksinə, cəmiyyətin və fərdin iqtisadi, sosial və mənəvi-mədəni potensialı möhkəmləndikcə, özgələşmənin ifadə formalarının yumşaldılması, onun ictimai və fərdi miqyaslı neqativ təsirlərini azaltmaq və minimuma endirmək yönümlü səyləri daha da artırır. Bu mənada hazırda cəmiyyətimizin inkişafının bütün sferalarında baş verən irəliləyişlər müvafiq olaraq onların hər birində özgələşmənin məzmunu və təzahür formalarında özünü göstərən kəskinlik dərəcəsinin azalması və bütövlükdə onun yumşalması ilə müşayiət olunur. Bu mənada, hazırda bizim ölkəmizdə həyata keçirilməkdə olan çoxtərəfli və əsaslı transformasiyalar ictimai inkişafın təmin edilməsi ilə yanaşı, həm də özgələşmənin bütün növlərinin təsir gücünün zəifləməsi baxımından böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Алексеев П.В. Социальная философия. М.: Т.К/Велби, Проспект, 2005, 608 с.
2. Багаев А.В. Общение как способ бытия человека и общества. Автореф. дисс. Канд. филос. наук. Нижний Новгород, 2006, с.36
3. Гегель. Работы разных лет. М.: Т.И. Мысль, 1977, 582 с.
4. Гусейнов А.А. Введение в этику М: МГУ. 1995, 208 с.
5. Маркс К. Энгелс Ф. Соч. 2-у изд. Т. 42. М., 1985. 372 с.
6. Парцвания В.В. Гениальные отчуждения: от человека абстрактного к человеку конкретному. М.: СИБ: Университетская книга, 2003, 372 с.
7. Румянцев М.В. Социально–философский анализ явления одиночества. Автореф. дисс.канд.филос.наук. Красноярск, 2006, 25 с.
8. Философия (под ред. И.Д.Губина и Т.Ю.Сидорикой). М.: Русское слово, 1998, 432 с.
9. Фромм Э. Бегство от свободы М.: Прогресс, 1990, 272 с.
10. Фромм Э. Анатомия человеческой деструктивности. М.: Республика, 1994, 447 с.
11. Фромм Э. Душа человека. М.: Республика, 1998, 412 с.
12. Микарубо С.Н. Сущность отчуждения деятельности и социально-философский анализ. Автореф.дисс.канд.филос.наук. М.: 1998, 19 с.

## ВЗАИМНЫЕ СВЯЗИ ЭКОНОМИЧЕСКИХ И СОЦИАЛЬНЫХ ФОРМ ОТЧУЖДЕНИЯ

**Г.Г.МАМЕДОВ, Г.М.МАМЕДОВ**

### РЕЗЮМЕ

В статье анализируется сущность экономической и социальной формы отчуждения, выявляются особенные связи в современном обществе. Особое внимание уделяется раскрытию значения проводимых в нашей стране трансформационных процессов, для смягчения остроты экономического и социального отчуждения.

**Ключевые слова:** экономическое отчуждение, социальное отчуждение, экономико-философская сущность суверенитета, смягчение отчуждения

## INTERRELATION BETWEEN ECONOMIC AND SOCIAL FORMS OF ALIENATION

**H.G.MAMMADOV, H.M.MAMMADOV**

### SUMMARY

The article analyzes the essence of economic and social forms of alienation, and studies their interrelation in the contemporary society. Special attention is paid to the exposure of the significance of some transformational processes held in our country for the mollification of the acuity of economical and social alienations.

**Key words:** economical alienation, social alienation, economic-philosophical essence of sovereignity, mollification of the essence